**“Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə növləri”nin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanının 2.3-cü bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə növləri” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 mart 2026-cı il
№ 69

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2026-cı il 6 mart tarixli 69 nömrəli
Qərarı ilə
**təsdiq edilmişdir.**

**Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə növləri**

1. Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə icazə əsasında texniki qurğular və avadanlıqlar tətbiq etməklə əhalinin içməli su, məişət, müalicə, sağlamlaşdırma və başqa ehtiyaclarını, habelə kənd və meşə təsərrüfatı, sənaye, energetika, nəqliyyat, balıqçılıq və digər dövlət və ya ictimai ehtiyacların ödənilməsi məqsədilə həyata keçirilir.

2. Su obyektlərindən xüsusi məqsədlərlə istifadəni həyata keçirmək üçün texniki qurğular və avadanlıqlar dedikdə hidrotexniki qurğu, kanal, boru, arx, nov, nasos, artezian, subartezian, kəhriz, quyu və sudaşıyan avtomobil (özüyeriyən, qoşqulu və ya yarımqoşqulu) nəzərdə tutulur.

3. Su obyektlərindən xüsusi məqsədlər üçün istifadənin növləri aşağıdakılardır:

3.1. su obyektlərindən su götürülməklə istifadə:

3.1.1. texniki qurğular və avadanlıqlar tətbiq etməklə yerüstü su obyektlərindən sonradan qaytarılmadan sugötürmə;

3.1.2. texniki qurğular və avadanlıqlar tətbiq etməklə yerüstü su obyektlərindən sonradan qaytarılması şərtilə sugötürmə;

3.1.3. texniki qurğular və avadanlıqlar tətbiq etməklə yeraltı suların çıxarılması;

3.2. su obyektlərindən (akvatoriyadan) su götürmədən istifadə:

3.2.1. faydalı qazıntıların hasil edilməsi, geoloji kəşfiyyat və qazma işlərinin aparılması, habelə yeraltı qurğuların tikintisi və istismarı zamanı su obyektlərindən istifadə;

3.2.2. qəfəs balıqçılığı fəaliyyətinin həyata keçirilməsi zamanı su obyektlərindən istifadə;

3.2.3. nəqliyyat ehtiyacları məqsədilə su obyektlərindən istifadə;

3.3. su obyektlərindən tullantı sularının axıdılması üçün istifadə:

3.3.1. tərkibində çirkləndirici maddələrin miqdarının müəyyən edilmiş normalardan artıq olmayan tullantı sularının su obyektlərinə (içməli su mənbəyi kimi istifadə edilən və ya içməyə yararlı yeraltı suları qidalandıran sututarlar istisna olmaqla) axıdılması;

3.3.2. tullantı sularının tullantı sutəmizləyici qurğular tətbiq etməklə müəyyən edilmiş normalara çatdırıldıqdan sonra su obyektlərinə axıdılması.

**Qeydlər:**

Su obyektlərindən xüsusi məqsədlər üçün istifadənin növlərinə aşağıdakılar aid edilmir:

1. yerin təkindən istifadə və ya yeraltı qurğuların tikintisi və istismarı zamanı lay sularının çıxarılması;

2. gəmilərin (kiçik həcmli gəmilər istisna olmaqla) su obyektlərinin akvatoriyasında hərəkəti və onların texnoloji avadanlıqlarının işini təmin etmək üçün su obyektlərindən suyun götürülməsi;

3. boru kəmərlərinin və ya kabellərin çəkilməsi məqsədilə su obyektlərindən istifadə;

4. fiziki və hüquqi şəxslərin onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci təzyiqsiz sulu horizonta quyuların istismarı zamanı yeraltı suyun çıxarılması.